**UOT:94.**

# SSRİ-NIN SÜQUTU: AZƏRBAYCAN – RUSİYA MÜNASİBƏTLƏRİ

***Məmmədova Yaqut Yaqub qızı***
***AMEA-nın A.A.Bakıxanov institunun doktrantı***
***Rubinski_1@mail.ru***

**Xülasə:***Məqalə Azərbaycan və Rus xalqlarının qarşılıqlı mədəni əlaqlərini 90-cı illərin əvvəllərini əhatə edir. 1990-cı illin yanvarından sonra Rusiyada yaşayan azərbaycanlılar öz tarixi vətənlərilə daha sıx əlaqə saxlamaq, əsil Azərbaycan həqiqətlərinin başqa xalqlara çatdırılmasına daha çox can atmağa başladığından bəhs edir .*

*Xalqlar arasında mədəni əlaqələr mənəvi körpülərin bərpasına şəarait yaratmış olur. Bu işdə yaradıcı insanların incəsənət xadimlərinin üzərinə böyük məsuliyyət düşür. Məhz belə bir zamanda hər iki xalqın ictimai cəmiyyətində baş verən gərgin proseslər mürəkkəb ictimai siyasi ab-hava fonunda mədəniyyət xadimləri böyük işlər gördü. Nəticədə gərginliyə baxmayaraq, 1992-ci il aprelin 4-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlər haqqında saziş imzalandı.*

**Açar sözlər** SSRİ, Sovet ittifaqı Kommunist partiyası, Nizami Gəncəvi, Qara Qarayev. Heydər Əliyev

**Ключевые слова** СССР, Коммунистическая партия Советского Союза, Низами Гянджеви, Гара Гараев, Гейдар Алиев

**Key words** USSR, The Communist Party of the Soviet Union, Nizami Ganjavi, Gara Garayev, Heydar Aliyev

Tarixin ədalətsiz qərarları ilə torpağımızda yer verdiyimiz erməni daşnakları, SSRİ rəhbərlərini pulla-qızılla satın alaraq Azərbaycan xalqına qarşı torpaq iddasında bulundular. Onlara dəstək Moskvadan, SovİKP Mk-nin baş katibi M.S. Qorbaçovdan gəldi. Bu riyakar, dövlət başçısının başladığı avantürüst "aşkarlıq", "demokratiya" oyunu xəstə təxəyyüllü ermənilərə meydan verdi. Ermənilərin Qarabağ iddası böyük bir imperiyanın dağılmasına gedən yolun başlanğıcı oldu! Qanunun aliliyinə hörmət etməyən, öz vətəndaşına sahib çıxmağı bacarmayan Sovet dövlətinin rəhbərinin göstərişi ilə Sovet-erməni birləşmələri 1990-cı il yanvarın 20-da Bakıda günahsız insanlara qarşı qırğın törətdilər. SSRİ məkanında erməni informasiya maşını başqa xalqlarda basqınlıq yaratdı. Blokada vəziyyətində olan Azərbaycan həqiqətləri heç kəsə çatmırdı. Belə bir vaxtda Azərbaycan ziyalıları, müxtəlif yaradıcı təşkilatlar ayrı-ayrı şəxslər Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün cəhdlər edirdilər. Dünya isə lal və kar idi. Azərbaycan isə təklənmişdir. Sən demə Azərbaycan xalqı üçün ikinci dəfə suverənlik, müstəqillik, azadlıq aktına gedən yol fəaciələrdən keçməli imiş...

1990-cı ilin fəciəvi Qanlı yanvarı Azərbaycan xalqının şərəfli tarixi qəhrəmanlıq səhifəsi olmaqla xalqın özünü dərkinə Milli oyanışına təkan oldu. Müstəqillik və azadlıq, xalqımızın uzun illər ərzində arzusu olsada, məhz 20 yanvar hadisəsi millətimizi 1991-ci ilin oktyabrın 18- də qəbul etdiyi "Müstəqillik haqqında" Konstitusiya Aktının qəbuluna gətirib çıxartdı. Bu hadisə Azərbaycan xalqının tarixi taleyində yeni müstəqil dövlət səhifəsinin yazılışına meydan açdı. Məhz 1990-cı ilin yanvarından sonra, SSRİ məkanında yaşayan azərbaycanlılar öz tarixi vətənlərilə daha sıx əlaqə saxlamaq erməni daşnaklarının, rus şovistlərinın törətdikləri cinayətlərinin, ifşa olunması haqqında əsil Azərbaycan həqiqətlərinin başqa xalqlara çatdırılmasına daha çox can atmağa başladılar. Məhz bu istək və təşəbbüsdə olan vətənpərvər insanlar, müxtəlif cəmiyyət və təşkilatlarda bir araya gəlməyə başladılar. Özlərini Azərbaycan xalqının ayrılmaz bir hissəsi hesab edən Moskvadakı "Dayaq" "Azəri" Leninqraddakı "Azərbaycan Milli Mədəniyyət mərkəzi" Kemerovadakı "Bulaq" cəmiyyətlərinin üzvləri, xalqımızın zəngin qəhrəmanlıq tarixindən, adət-ənənələrindən, incəsənətlərindən, ədəbiyyatından, başqa millətlərin nümayəndələrinə vaxtaşırı keçirdikləri tədbirlərdə söz açmaqla yanaşı, demokratik ədalət uğurunda mübarizədə də fəal iştirak

edirdilər. Respublikamızdan kənarda fəaliyyət göstərən mədəniyyət mərkəzləri və cəmiyyətləri ilə sıx əlaqə yaratmaq üçün 1991-ci il, iyun ayının 16-dan 19-dək Bakıda Azərbaycan Mədəniyyət Fondunun təşəbbüsü ilə ittifaqda fəaliyyət göstərən Azərbaycan Milli mədəniyyət mərkəzlərinin və cəmiyyətlərinin Konfransı çağırıldı. Konfransla bağlı "Azərbaycan" qəzetinin öz səhifəsində belə yazırdı:

- "Konfrans iştirakçıları birləşdirən birgə fəaliyyət proqramı yaratmaq arzusuna baxmayaraq, respublikamızda baş verən ictimai-siyasi hadisələrə baxışlar olduqca müxtəlifdi. Və bu konfrasın həddindən artıq gərgin keçəcəyini aydın göstərirdi.

Konfransın epiqrafı "Mədəniyyət azadlığın açarıdır" adlanırdı. Zuğulbadakı Beynəlxalq "Gənclik" turizm mərkəzində baş tutan konfransı iyunun 17-də giriş sözü ilə Azərbaycan Mədəniyyət Fondunun sədri, professor Kamal Abdullayev açdı. AMF və ittifaqdakı Azərbaycan milli mədəniyyət mərkəzləri mövzusu ilə çıxış edən Kamal Abdullayev bu əlaqələrin zəif olmasından, birgə fəaliyyət proqramının olmamasından, respublikanın bütün dünyada tanınması üçün səyləri birləşdirməyin zəruriliyindən danışdı. O, mədəniyyət mərkəzlərinin fəaliyyət göstərdikləri yerlərdə Azərbaycan mümayəndəliyinə çevrilmələri ehtimalını da qeyd etdi. Konfransda cəmiyyətlərin sədrlərinin daxil olduğu şura yaradıldı. Azərbaycandan kənarda fəaliyyət göstərən cəmiyyətlərin arzusu ilə şuraya sədrlik professor Kamal Abdullayevə həvalə olundu. Konfrans Azərbaycan Respublikası Prezidentinə müraciətlər qəbul etdi. Bu müraciətlərdə Bakıda evnin ləğv edilməsi, ittifaqda və xaricdə yaşayan həmvətənlərimizə qarşı laqeydliyin aradan qaldırılması və latın əlifbasına keçidin tezləşdirilməsi məsələlərinə toxunulurdu. "

Bütün dövrlərdə olduğu kimi, 1990-1993-cü illərdədə siyasətçilərin siyasi manevirlər etdikləri vaxt, daha çox əziyyət çəkən sadə xalq oldu. Uzun illər sovet ideologiyasının təsiri ilə SSRİ məkanındakı millətlər üçün çalınan "xalqlar dostluğu siyasi simfoniyası" elə dar düşüncəli siyasətçilərin dirijorçuluğu ilə falş olduğunu ortaya çıxardı. Xaos, ehtiraslı kütlə qəzəbi cəmiyyətdə təkcə şəxsi faciələrə deyil, eyni zamanda xalqlar arasında uçuruma yol açır. Belə məqamlarda hər bir yetkin xalqın düşünən beyni olan ziyalıları harda yaşamasından asılı olmayaraq öz iradəsini, mənəvi borc hissini ortaya qoymaqla milləti və dövləti üçün əməli fəaliyyətə keçməlidir. Məlum hadisələrdən sonra Moskva ilə Bakı arasında "soyuq müharibənin" davam etdiyi bir vaxtda Rusiyada yaşayan azərbaycan əsilli bir çox tanınmış ziyalılar, alimlər, və iş adamları bir araya gələrək, rus azərbaycanı xalqları arasında mövcud olmuş tarixi dostluq körpüsünü bərpa etməyi qarşılarına məqsəd qoymuşdular. Keçmiş sovet dövründə SSRİ-ni yaxın şərq ölkələrində səfir kimi yüksək peşəkarlıqla təmsil etmiş Elman Araslı həmin dövr öz fəaliyyətləri ilə bağlı belə yazır: - "Keçmiş sovetlər dönəmində, Cənubi Yəməndə diplomat kimi fəaliyyət göstərdiyim dövrdə keçən əsrin ən böyük geosiyasi kolliriyası, -SSRİ-nin süqutu baş verdi. Moskvaya döndükdə, uzun illər çalışdığımı Xarici İşlər Nazirliyində özümə qarşı soyuq münasibətlə üz-üzə qaldım. Ancaq işsiz yox... Baş verənlər hamı kimi mənidə narahat edirdi. Bir azdan bir Moskvada yaşayan həmyerlilərimizlə birgə, "Rusiya-Azərbaycan dostluq Cəmiyyəti" yaratmaq təsəbbüsü ilə çıxış etdik. Təşəbbüs qruppunun ilk iclası birini Moskvadakı evimizdə keçirildi. Qərara alındıki, keçmiş bakılı N.K Baybakov cəmiyyətin sədri, mənim xanımım Elvira Araslını isə müavin seçək. Bu ictimai təşkilatda tədbirlərin keçirilməsi isə koordinator kimi mənə həvalə olundu. Beləliklə, Moskvanın mərkəzində "Rusiya - Azərbaycan Dostluq Cəmiyyətinin" təqdimatı oldu. Cəmiyyətin üzvləri isə keçmiş SSRİ məkanında nüfuz sahibi olan Azərbaycan ziyalıları idi. Sovet kosmos proqramına uzun illər rəhbərlik etmiş Kərim Kərimov, Sibirdə nefti kəşf etmiş Rusiya EA-nın müxbir üzvü Fərman Salmanov, "Voprosi istorii" jurnalının baş redaktoru, Rusiya EA-nın müxbir üzvü Əhməd İsgəndərov, SSRİ xalq artisti Müslüm Maqamayev, iş adamları Araz Ağalarov, İsgəndər Xəlilov və onlarla başqaları.. Həmin dövrdə bir Rus və Azərbaycan siyasətçilərinin dil tapması, xalqlarımızın bir-birinə yaxın münasibətdə olması üçün xeyli iş gördük!"

Moskvada yeni dostluq cəmiyyətinin fəaliyyətindən bir müddət sonra 1992- ci il iyul ayının 30-da “Xalq” qəzeti belə bir informasiya dərc etmişdir: - “Bakıda respublika” – “Azərbaycan – Rusiya” cəmiyyətinin təsis konfransı keçirilmişdir. Bakı Sosial İdarəetmə və Politologiya İnstitunun konfrans salonuna təşəbbüs qrupunun – təşkilat kəmitəsinin üzvləri, şəhər ictimaiyyətinin nümayəndələri, Moskva və Sankt – Peterburqdan gəlmiş qonaqlar, dövlət və ictimai xadimlər, dini təşkilatların nümayəndələri, elm və mədəniyyət xadimləri var idi. Konfrans iştirakçıları belə bir faktı qeyd etmişlər ki, hər iki suveren dövlətin geniş ictimaiyyəti hələ ikitərəfli dövlətlər arası müqavilə bağlamayan siyasətçiləri qabaqlamışlar. Azərbaycan və Rus xalqları arasında dostluq və qarşılıqlı anlaşma ənənələrinin tarixi kökləri – xüsusilə bakıda var. Natiqlər xatırlatmışlar ki, Azərbaycan Prezidenti Əbülfəz Elçibəy də çıxışlarından birində bu barədə danışmışdır. Respublikanın dövlət siyasətinin milliyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşlarının hüquqlarına əməl edilməsinə istiqamətlənməsi barədə onun bəyanatı bu gün özünü real təsdiqini tapır. Toplaşanlar yeni könüllü kütləvi ictimai təşkilatın nizaməsini təsdiq etmiş, idarə heyətini və təftiş komissiyasını seçmişlər. Azərbaycan Respublikasının xalq deputatı Mixail Zabelin yekdikliklə cəmiyyəti prezidenti seçilmişdir. Axırda təsis konfransının iştirakçıları Azərbaycan və Rusiya parlamentlərinə müraciət qəbul etmişlər.”

Müstəqilliyin ilk illərində Rusiyada yaranan bu dostluq cəmiyyətləri, sonralar dünyada və Rusiyada geniş vüsət olan diaspor təşkilatlarının formalaşmasına öz töhfələrini vermiş oldular. Rusiya və Azərbaycan xalqları arasında dostluq münasibətlərinin inkişafına, mədəni əlaqələrin genişlənməsinə, Rusiyada Azərbaycan mədəniyyətinin təbliğinə, Rusiya azərbaycanlıları arasında həmrəyliyə onların hüquqlarının müdafiəsində, bu gün Rusiyada azərbaycanlıları öz ətrafında birləşdirən 13 mərkəz fəaliyyət göstərsədə, bunlardan ikisi – Ümumrusiya Azərbaycanlıları konqresi, Rusiya Azərbaycanlılarının Federal Milli Mədəni Muxtariyyəti FNKA-AZERROS ətrafında Azərbaycan cəmiyyətləri və təşkilatları toplaşıb və Rusiyanın bir çox bölgəsində özəkləri var. Rusiyada Azərbaycan diaspor təşkilatları 89 obyektin hamısında fəaliyyət göstərir. Rusiyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları və cəmiyyətlərini ətrafinda birləşdirən bu iri qurumlar fəal işlə məşğul olur.”

Azərbaycanın zəngin təbiəti və torpaqaltı sərvəti həmişə, təkcə yaradıcı insanların heyrətinə deyil, eləcədə onun xəbis niyyətli bədxahlarınında həsədinə səbəb olub. Həmişə xalqlar dostluğundan cild-cild romanlar, povestlər şeir və poemalar yazan Sovet yazıçıları ikiüzlü siyasətçilərin dəstəyi ilə erməni təcavüzünə məruz qalan Azərbaycan xalqının ədalətli haqq səsinə səs verməkdənsə susmağa üstünlük verdilər. Bu vicdanları susmuş qələm əhli sovet qoşunları 1990-cı ilin yanvarında Bakıda qırğın törətdikləri zamanda da, sonra ermənilərlə birgə Azərbaycan torpaqlarını xaincəsinə zəbt etdikləri vaxtdada susmağa üstünlük verdilər. Haqsız təcavüzə məruz qalmış bir xalqın haqq səsini , ədalət hayqırtısını dünyaya çatdırmaq üçün Azərbaycan Yazıçılar Birliyi bir vaxtlar dost deyərək əl uzadıqları SSRİ Yazıçılar İttifaqına, SSRİ PEN mərkəzinə Literaturnaya “Qazeta” redaksiyasına 1991-ci il dekabrın 12-də müraciət qəbul etdilər. Müraciətdə deyilirdi:- “Dövlətlərarası münasibətlərin necə qurulmasından asılı olmayaraq, dünya yazıçılarının qardaşlığı mövcuddur. Bu keçmiş ittifaqın yazıçılarına daha çox aiddir. Axı bu yazıçıların çoxu ilə ünsiyyətdə olmuş, dostluq etmiş bir-birimizin əsərlərini tərcümə etmişik. Taleyin bu ağır və dəhşətli saatında sizə müraciət edirik. Uzun illər boyu vətəndaşları olduğumuz ölkənin dağılması Qarabağ konfliktindən başladı. Qədim Azərbaycan torpaqlarına ərazi iddialarından, sərhədləri dəyişmək cəhdindən, konstitusiya qanunlarını tapdamaqdan başlandı...

Sizin vicdanınıza ədalət duyğunuza, nəhayət adicə düşüncənizə, özünü-qoruma instinktinizə xitab edirik. Bu gün bizim torpaqlarımızda alovlanan müharibə yanğını sabah dünyanın altıda biri sayılan ərazini, sonra isə bütün dünyanı əhatə edəcək.. Fəlakət bu gün

bizim evlərə gəldiyi kimi, sabah sizin qapınızıda döyəcək. Bəlkə müsibətin qarşısını almaq hələ gec deyil. Bəlkə vicdanlı yazıçı sözü qadirdir. O, söz ki, onu hamımız gözləyirik."

Xalqlar arasında inamsızlıq toxumu səpən, riyakar "siyasətbazlar", Q.Starovoytova, A.Nuykin kimi öz erməniprəst dedi-qoduları ilə rus və azərbaycanlıları bir-birinə qarşı qoyurdular. Məhz belə bir ağır, sınaq məqamında Azərbaycanda yaşayan ruslar, 1992-cı il fevralın 7-də Rusiya Federasıyasının Prezidenti B.N.Yeltsinə müraciət etdilər.

Xalqlar arasında mədəni əlaqələr mənəvi körpülərin bərpasına şəarait yaratmış olur. Bu işdə yaradıcı insanların incəsənət xadimlərinin üzərinə böyük məsuliyyət düşür. Məhz belə bir vaxtda cəmiyyətdə baş verən gərgin proseslər mürəkkəb ictimai siyasi ab-hava fonunda, 20 yanvar faciəsinin bütün dünyada əks-səda tapdığı zaman 1990-cı ilin mayında Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyəti özünün böyük plenumunu keçirdi. Plenumun işində Moskvadan, Alma- Atadan, Ufadan gəlmiş qonaqlar iştirak edirdilər. Əslində bəstəkarların bu plenumu informasiya blokadasında olan Azərbaycan həqiqətlərini öz həmkarlarına çatdırmaq cəhdi idi. Plenuma –"İki simfonik və iki kamera konsertlərinin praqramına bütövlükdə ancaq yeni əsərlər daxil edilmişdi: Cövdət Hacıyevin 6 saylı simfoniyası, Aqşin Əlizadənin 5 saylı simfoniyası, Ramiz Mustafayevin 6 saylı simfoniyası, Nərmin Məmmədovun fortepiano və orkestr üçün konserti, Azər Rzayevin Skripka, Viola və orkestr üçün ikili konserti, Zakir Bağırovun Tar və orkestr üçün konseti, Fərhəng Hüseynovun Klassik Simfoniyası, Cahangir Cahangirovun Qaboy və orkestr üçün konserti Sevda İbrahimovanın Orqan və kamera orkestri üçün kanserti, Oqtay Rəcəbovun kamera orkestrı üçün 3 saylı simfoniyası, Musa Mirzəyevin "Böyük ustadın xatirəsinə" simfonik əsəri, Qalib Məmmədovun kamera orkestrı üçün miniatürləri ifa olundu."

SSRİ Bəstəkarlar İttifaqının katibi, bəstəkar Aleksandr Çaykovski plenumun keçirilmə şəraitini belə səciyyələndirmişdi:- "Fövqəladə vəziyyət şəhərində zərif simfoniyalar dinlədim. Doğrusu, Yanvar faciəsindən son-rabelə bir biz tədbiri keçirmək üçün ürəyində təpər tapan xalqın mətanətinə heyranlığımı gizlədə bilmirəm."

Bəstəkarlar İttifaqı mədəni əlaqələr missiyasını davam etdirərək, 1990 –cı ilin oktyabrında gənc bəstəkarların " Azərbaycan – Rusiya" adlı festivalını keçirdi. Festivala Moskvadan, Sverdlovskdan, Rostovdan, Ufadan, Kazandan, Saranskdən musiqiçilər dəvət olunmuşdular. Şəhidlər Xiyabanın ziyarətlə başlanan tədbir, flarmoniyada öz proqramlarını açıq elan etdilər. Festival iştirakçıları yeni lentə alınmış əsərləri dinləməklə yanaşı, Dövlət Flarmoniyasında kamera musiqisindən ibarət konserlədə çıxış etdilər.

Bu dövrdə respublikadakı mürəkkəb vəziyyətə, davam edən erməni təcavüzünə baxmayaraq, Azərbaycan Bəstəkarlar İttifaqı MDB ölkələri ilə yaradıcılıq əlaqələrini davam etdirirdi. Heçdə təsadüfi deyil ki, SSRİ Bəstəkarlar İttifaqının 1991-ilin yanvarında keçirilən plenumunda Azərbaycan Bəstəkarlarıda iştirak edirdilər. Plenumun konserlərində Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi" oratoriyası, Firəngiz Əlizadənin simli kvartet üçün "Dilogiyası" səsləndirildi.

Azərbaycan Bəstəkarları həmin ilin martında Moskvada SSRİ Bəstəkarlarının VIII qurultayında da iştirak etdilər. 1992-ci ilin fevralında SSRİ Bəstəkar İttifaqının barəsində Bəstəkarlıq Təşkilatlarının Beynəlxalq Assosiasiyası (MAKO) təsis olundu. Azərbaycan Bəstəkarlar İttifaqı bu yeni təşkilata üzv qəbul olundu. Sonrakı illərdə Azərbaycan Bəstəkarları, Sank-Peterburqda gənc bəstəkarların II Beynəlxalq festivalında, Moskvada Qara Qarayevin, Niyazinin xatirə gecələrində, Nizaminin 850 illiyi ilə bağlı yubiley təntənələrində yaxından iştirak etdilər.

SSRİ-nin süqutuna, çöküb dağılmasına istiqamətlənmiş suverenlik arzusunun bünövrəsini 1988-ci il noyabr ayında Estonlar qoydular. Onlar "Suverenlik haqqında" bəyannamə qəbul etməklə respublika ərazisində Estoniya qanunlarının aliliyini təmin etdilər.1990-cı ilin martında Litva Ali Soveti Litva dövlətinin müstəqilliyini bərpa etdiyini bəyan etdi.

1990- cı il iyunun 12-də isə Rusiya Federasiyasının xalq deputatlarının birinci qurultayı "Rusiyanın dövlət suverenliyi haqqında" bəyannaməni təsdiq etdi. Onların ardında Belarus Ali Soveti 1990-cı ilin iyul ayında dövlət suverenliyi haqqında bəyannamə ilə çıxış etdi. Həmin ildə Qazaxıstan, Tacikstan, Qırğıstanda öz suverenliklərini elan etdi.1991-ci il aprelin 9-da Gürcüstan Ali Sovetidə dövlət müstəqilliyinin bərpası haqqında akt qəbul etdi. 1991-ci il oktyabr 18-də Azərbaycanda "Müstəqillik haqqında" Konstitusiya Aktına səs verdi. 1991-ci il dekabrın 1-də Ukraynada keçirilən referendunun nəticələri onu göstərdi ki, onlarda ittifaq müqaviləsinə qoşulmayacaqlar. Bir neçə gündən sonra isə Rusiyanın, Ukraynanın, Belarusun başçıları Belovejsk sazişləri əsasında bəyan etdilər ki, Sovet İttifaqı öz fəaliyyətini dayandırır və artıq beynəəxalq hüququn subyekti kimi mövcüd deyildir. Bax beləcə, 1991-ci il dekabrın 8-də SSRİ tarixin son gününü başa vurdu.

Müstəqillik yoluna qədəm qoyan Azərbaycan erməni təcavüzünün qarşısını almaqla yanaşı, təxirə salmadan daxili və xarici siyasət konsepsiyasını hazırlayıb həyata keçirməsi,taleyüklü bir nömrəli vəzifə idi. Təəssuf ki, 1991-1992-ci illərdə bu istiqamətdə heç bir irələyiş olmadı.

1992-ci ilin martın 6-da A.Mütəllibov istefaya göndərildi. Mayın 14-də hakimiyyətə qayıtmaq cəhti heç bir nəticə vermədi. 1992-ci ilin may-iyun aylarında Cəbhə-Müsavat birliyi hakimiyyətə gəldi.

Azərbaycan-Rusiya arasında yaşanan gərginliklərə baxmayaraq, 1992-ci il aprelin 4-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında diplomatik münasibətlər haqqında saziş imzalandı.

***Ədəbiyyat***

1.Elman Araslı. Полвека на Ближнем Востоке. Баку 2012
2.Azərbaycan qəzeti №26 28.06.91 səh 7
3.Ədəbiyyat qəzeti №50 13.12.91 səh 1
4.Xalq qəzeti №27 7.02.92
5.Lalə Hüseynova. Azərbaycan Bəstəkarlar İttifaqı:Böyük yolun tarixi. Bakı 2010
6.Kommunist qəzeti 22.05.90
7.Azərbaycan qəzeti №9 03.10.92 səh3
8.Xalq qəzeti №202 28.10.92
9. Azərbaycan qəzet №39 17.10.92
10. Heydər Əliyev. Minilliklərin qovuşuğunda. Bakı 2001
11. Azərbaycan Diasporu ( Ensiklopedik məlumatlar toplusu). Bakı 2012

## РАСПАД СССР: ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И РОССИЕЙ

***Мамедова Ягут Ягуб кызы***

***Резюм***

90-е годы XX века вошли в историю Азербайджана, как героический, одновременно трагический период. События 20 января 1990 года глубоко ранили оба народа – русский и азербайджанский. Однако, представители интеллигенции с обеих сторон сыграли важную роль в налаживании культурных связей между обоими народами.

## THE COLLAPSE OF THE USSR : AZERBAIJAN AND RUSSIA RELATIONS

***Mammadova Yagut Yagub***

***Summary***

In 90s of the twentieth century, as well as the awakening of self-determination in terms of the history of the Azerbaijani people and the tragic, heroic in the way of historical destiny of our country's independence, as has entered a new phase. The main reason was the events of January 20, 1990. 20 January for the first time face to face in front of the Azerbaijani and Russian people showed a sharp dilemma. But the culture has no boundaries. It brings people together.

***Rəyçilər: Rüstəmova Aypara, Ağasiyev İkram***
***AMEA-nın A.A.Bakıxanov adına İnstitut 18 mart 2021-ci il tarixli iclasın 08 saylı protokolu***
***Daxil olma tarixi 14 fevral 2021-ci il***